**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RƏHİMOV MİKAYIL RƏHMAN OĞLU**

# REGİONUN İNVESTİSİYA POTENSİALINDAN İSTİFADƏ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ (ARAN İQTİSADİ RAYONU TİMSALINDA)

**İxtisas**: **5312.01 -** «Sahə iqtisadiyyatı»

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin

# A V T O R E F E R A T I

**BAKI - 2014**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının

İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Sadıx Vəli oğlu Salahov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Rəna Polad qızı Sultanova**

iqtisad elmləri namizədi, dosent
**Baxış Sabir oğlu Əhmədov**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

Dissertasiya işinin müdafiəsi 11 dekabr 2014-cü il tarixində saat $16^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" noyabr 2014-cü ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru, dosent F.Q.Musayeva

**İŞİN ÜMUMİ XARAKTERİSTİKASI**

**Mövzunun aktuallığı.** Regionların istehsal və resurs potensialının fəallaşdırılması, yeni imkanların aşkar edilməsi nəinki böyük, hətta kiçik ölkələrin gündəliyində duran mühüm məsələlərdəndir. Ölkəmizdə son on ildə bu istiqamətdə sistemli tədbirlər həyata keçirilmişdir. Regional inkişaf imkanlarının reallaşdırılması üçün hüquqi-normativ baza yaradılmış, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) uğurla icra olunmuşdur. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində həyata keçirilən işlər öz mühüm müsbət nəticələrini vermişdir.

Sosial-iqtisadi inkişaf və idarəetmə baxımından regiona ölkə daxili ərazi vahidi kimi baxılması, onun inkişaf prioritetlərinə, həmin prioritetlərin reallaşdırılmasının investisiya təminatının tədqiqini obyektiv zərurətə çevirir. Bu mənada Aran iqtisadi rayonunun investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi həm elmi-nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyətə malikdir.

Regionun sosial-iqtisadi inkişafında investisiya potensialın rolu müxtəlif xarakterli, çoxsaylı amillərin təsiri altında formalaşır. Bu amillər regionda həlli nəzərdə tutulan iqtisadi, sosial, ekoloji və digər problemlərin xarakterinə görə bir-birindən fərqlənir. Bu isə hər bir region üzrə müqayisəli təhlilin aparılmasını və optimal variantların tapılmasını tələb edir. Qeyd olunanlar Aran iqtisadi rayonu timsalında regionun investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi problemlərinin aktuallığını şərtləndirir.

**Problemin öyrənilməsi vəziyyəti.** Regionların sosial-iqtisadi inkişafında investisiya potensialının rolunun artırılmasının elmi - nəzəri və metodoloji-praktiki problemləri Azərbaycanın iqtisadçı alimləri, o cümlədən Nadirov A.A., Səmədzadə Z.Ə., Salahov S.V., Sadıqov M.M., Ataşov B.X., Alıyev İ.H., Balayev R.Ə., Əliyev R.B., Xəlilov H.A., İbrahimov E.R., Qasımov Ə.C., Məmmədov A.N., İbrahimov İ.H., Verdiyev Ə.Ç., Əhmədov İ.V., Hüseynov M.C., və başqaları tərəfindən araşdırılmış, bir sıra problemlərin həlli üçün mühüm elmi-praktiki əhəmiyyətə malik təkliflər əsaslandırılmışdır. Bu istiqamətdə daha çox iş görmüş xarici ölkə alimləri Perloff M.S., Nurkse R., Hollis C., Rossensteyn-Rodan P.N., Loyd R., Popov N.A., Serova E.B.,

Uşaçev İ.Q. və başqaları xüsusi qeyd olunmalıdır. Həmin müəlliflərin əsərlərində regional iqtisadiyyatın inkişafı və tənzimlənməsinin səmərəliliyi problemləri tədqiq olunmuşdur.

Bununla belə adları çəkilən alimlər öz tədqiqatlarında regional iqtisadiyyatın investisiya məsələlərini müxtəlif aspektlərini araşdırsalar da, Aran iqtisadi rayonu üzrə investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi tədqiqini və həllini qarşılarına məqsəd qoymamışlar.

**Tədqiqatın məqsədi** Aran iqtisadi rayonunda investisiya potensialından istifadə prioritetlərini elmi cəhətdən əsaslandırmaq və onların reallaşdırılması istiqamətində təklif və tövsiyələr hazırlamaqdan ibarətdir.

Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- investisiya potensialının qiymətləndirilməsi və regionun sosial-iqtisadi inkişafında ondan istifadənin elmi-nəzəri əsaslarının öyrənilməsi;
- tarazlı regional siyasətdə investisiya potensialından istifadə prioritetlərinin müəyyənləşdirilməsi metodologiyasının tədqiqi;
- Aran iqtisadi rayonunun iqtisadi inkişaf səviyyəsinin təhlili;
- regionun investisiya potensialından istifadə vəziyyətinin qiymətləndirilməsi;
- iqtisadi mərkəzəqaçma amili nəzərə alınmaqla regionda tarazlı investisiya fəaliyyətinin və investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- Aran iqtisadi rayonunun investisiya potensialından səmərəli istifadə olunmasına dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyektini** Aran iqtisadi rayonunda iqtisadi və sosial sahədə fəaliyyət göstərən iqtisadi subyektləri təşkil edir.

**Tədqiqatın predmetini** isə regional investisiya potensialından səmərəli istifadə ilə bağlı qanunauyğunluqlar və qarşılıqlı münasibətlər təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Nəzəri əsas kimi Azərbaycanın və müxtəlif xarici ölkələrin iqtisadçı alimlərinin regional inkişaf və onun investisiya proseslərinin tənzimlənməsi problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, ölkə Prezidentinin fərman və sərəncamları, hökumətin

qərarları və digər normativ sənədlər götürülmüşdür.

Dissertasiya işində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, ölkənin regionlarında, o cümlədən Aran iqtisadi rayonunda müxtəlif təsərrüfat kateqoriyalarının, müvafiq elmi-tədqiqat institutların materialları, Kənd Təsərrüfatı və İqtisadiyyat və Sənaye Nazirliyinin məlumatları və normativ-arayış sənədlərindən istifadə olunmuşdur.

Tədqiqat prosesində sistemli və müqayisəli təhlil, ümumiləşdirmə və digər statistik-iqtisadi üsullardan istifadə edilmişdir.

**İşin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- regionda investisiya potensialının təşəkkülünü və ondan istifadənin səmərəliliyini şərtləndirən amillər müəyyən olunmuşdur;
- tarazlı inkişaf meyarları baxımından regionun investisiya potensialından istifadə prioritetləri müəyyənləşdirilmişdir;
- Aran iqtisadi rayonunda investisiya potensialından istifadə səviyyəsinin yüksəldilməsi imkanları aşkar edilmişdir;
- regionda iqtisadi mərkəzəqaçma amilini və tarazlı inkişaf tələblərini nəzərə almaqla investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən olunmuşdur;
- Aran iqtisadi rayonunda müxtəlif fəaliyyət növləri üzrə perspektivli investisiya istiqamətlərinə dair təklif və tövsiyələr əsaslandırılmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Nəticələr və əsaslandırılmış təkliflər Aran iqtisadi rayonunun investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsini şərtləndirən amillərin təsirini qiymətləndirməyə, sosial-iqtisadi inkişafı proqnozlaşdırmağa, adekvat tənzimləmə sistemini formalaşdırmağa imkan verir.

Əsaslandırılmış müddəalar, təklif və tövsiyələr regionun sosial-iqtisadi inkişaf strategiyasının investisiya mühitinin yaxşılaşdırılmasının praktiki problemlərin həlli üçün istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Nəzəri müddəalar və tədqiqatın nəticələri 2011-2013-cü illərdə beynəlxalq və ümumrespublika səviyyəsində keçirilmiş konfranslarda məruzə olunmuş və müzakirə edilmişdir. Dissertasiyanın əsas nəticələrinin tətbiqi haqqında arayış Azərbaycan Respublikası Kürdəmir Rayon İcra Hakimiyyəti tərəfindən təqdim olunmuşdur. (1/273 saylı 14 oktyabr 2014-cü il).

**Tədqiqat işinin nəticələrinin çap edilməsi və aprobasiyası:** Tədqiqat işinin əsas nəticələri 8 elmi məqalə və tezisdə öz əksini tapmışdır. Onlardan biri Moskvada rus dilində nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** İş giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Onun ümumi həcmi 135 səhifədir. İşdə 24 cədvəl və 6 şəkil, 123 addan ibarət istifadə olunmuş ədəbiyyat siyahısı verilmişdir.

## Dissertasiya işinin məndəricatı

**Giriş**

**I Fəsil. Regionun investisiya potensialı və ondan istifadənin elmi-nəzəri əsasları**

1.1. Regional inkişafın və onun tənzimlənməsinin nəzəri-metodoloji məsələləri

1.2. Regionun investisiya potensialı və onun formalaşması mühitinin səciyyələndirilməsi

1.3. Tarazlı regional siyasətdə investisiya potensialından istifadənin və investisiyaların maliyyələşdirilməsinin prioritetləri

**II Fəsil. Aran iqtisadi rayonunun sosial-iqtisadi inkişaf səviyyəsi və investisiya potensialından istifadə vəziyyəti**

2.1. Regionun iqtisadi inkişaf səviyyəsinin təhlili

2.2. Regionda əhalinin həyat səviyyəsi və onun yüksəldilməsinin investisiya təminatı

2.3.İnvestisiya potensialından istifadə vəziyyətinin qiymətləndirilməsi

**III Fəsil. Regionun investisiya potensialından səmərəli istifadə istiqamətləri**

3.1. İqtisadi mərkəzəqaçma amili nəzərə alınmaqla regionda tarazlı investisiya fəaliyyətinin perspektivləri

3.2. İntensivləşmə mühitində regionun investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi

3.3.Regionda perspektivli investisiya istiqamətlərinin müəyyənləşdirilməsi

**Nəticə**

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

1. **Baxılan dövr ərzində Aran iqtisadi rayonu üzrə investisiya potensialından istifadə region üzrə makroiqtisadi göstəricilərin**

**artımına əhəmiyyətli təsir göstərməmişdir.**

İqtisadi baxımdan, potensial qarşıya qoyulan məqsədə nail olmaq və vəzifələrin icrası üçün mövcud olan vasitə və ehtiyatların məcmusudur. Regionun investisiya potensialı dedikdə, əksər hallarda, mülkiyyət və digər mənsubiyyətindən asılı olmayaraq bütün kapital sahiblərinə normal və zəmanətli iqtisadi gəlir təmin edən tarazlı inkişaf potensialı nəzərdə tutulur. İnvestisiya potensialı hər şeydən əvvəl, inkişafın maliyyə təminat səviyyəsini şərtləndirir.

İnvestisiya potensialının reallaşması konkret regionda həyata keçirilən investisiya siyasətinin prioritetlərindən və onların formalaşdırdığı iqtisadi fəallıq mühitindən asılıdır. Regionun investisiya potensialı ölkənin investisiya potensialının ərazilər üzrə paylanması strategiyasından, regional ehtiyatlardan səmərəli istifadə meyarından, region büdcəsinin mədaxil-məxaric nisbətindən və s. asılıdır.

Regionda investisiya potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi üçün tətbiq edilən meyarları aşağıdakı kimi fərqləndirmək olar:

- istehsalın genişləndirilməsinə görə səmərəlilik;
- xərclərin azaldılması hesabına əlavə gəlirin əldə edilməsi;
- istehsal və satış üzrə riskin azalması;
- yeni texnologiyaların tətbiqi və s.

Bu və ya digər regionda, investisiya potensialından istifadə səviyyəsinin qiymətləndirilməsi metodikasını seçərkən, informasiyanın tamlığı dərəcəsi diqqət mərkəzində olmalıdır. Regionların sosial-iqtisadi inkişafın təhlilinin informasiya bazası təşəkkül mərhələsindədir və mövcud informasiya təminatı yuxarıda qeyd olunan yanaşmaların reallaşdırılmasına hələ ki, imkan vermir. Bu mənada investisiya potensialından istifadəni xarakterizə etmək üçün adambaşına düşən məcmu məhsul (MM), istifadəyə verilmiş əsas fondlar və əsas kapitala investisiya qoyuluşları; əsas kapitala investisiyaların bir manatına düşən istifadəyə verilmiş əsas fondlar və məcmu məhsul, konkret regionun ölkənin ümumi daxili məhsulunda və əsas fondlarında xüsusi çəkisi və s. kimi göstəricilərdən istifadə edilmişdir.

Ölkə ərazisinin 24,7%-ni əhatə edən, Azərbaycanın ən böyük regionu olan Aran iqtisadi rayonuna 15 inzibati rayon və 3 respublika tabeli şəhər daxildir. Ölkənin əmək qabiliyyətli əhalisinin 17 %-i Aran iqtisadi rayonunda yaşayır. Aranın iqtisadiyyatının əsasını, bitkiçilik, heyvandarlıq, sənaye və xidmət sahələri təşkil edir. İqtisadi rayonunun

ümumi iqtisadi göstəriciləri regionların sosial-iqtisadi inkişafı üzrə birinci dövlət proqramının icrasına başlanan dövrdən indiyə qədər yaxşılaşmaqdadır (cədvəl 1).

Cədvəl 1

Aran iqtisadi rayonunun ümumi iqtisadi göstəriciləri, (mln. manat)

| | 2003 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| Məhsulun ümumi buraxılışı | 994,1 | 1242,1 | 2778,5 | 2606,6 | 2947,1 | 3879,4 | 4328,1 | 4876,5 |
| Sənaye məhsulu | 327,1 | 373,5 | 766,6 | 581,1 | 629,3 | 791,1 | 821,5 | 849 |
| Kənd təsərrüfatı məhsulu | 456,1 | 559,9 | 998,7 | 1133,4 | 1124,4 | 1357,1 | 1435,5 | 1582,5 |

Mənbə: http://stat.gov.az/

2003-cü ilə nisbətdə regionda istehsal olunmuş ümumi məhsulun həcmi 4,9 dəfə artaraq, 2013-cü ildə 4876,5 milyon manata yüksəlmiş, ölkə üzrə məcmu məhsul buraxılışında xüsusi çəkisi 7%-ə çatmışdır. Həmin dövrdə sənaye məhsulu istehsalı, faktiki qiymətlərlə 2,6 dəfə, kənd təsərrüfatı məhsulu istehsalı isə 3,5 dəfə artmışdır. 2012-ci il üzrə ölkədə istehsal edilən kənd təsərrüfatı məhsulunda Aran iqtisadi rayonun payı 29,6%-dir. İstehsal olunan kənd təsərrüfatı məhsulunun 46,7%-i bitkiçiliyin, 53,3%-i isə heyvandarlıq məhsulunun payına düşür.

Aran iqtisadi rayonunda sənayenin inkişafı, kəşf edilmiş və on illərlə istismar edilən neft-qaz yataqları, tikinti materialları, elektrik enerjisi istehsalı və kənd təsərrüfatı mənşəli xammalın emalı ilə əlaqədardır. 2013-cü il üzrə məhsul və xidmətlərin ümumi buraxılışında sənaye sahəsinin payı təqribən 17,4%-dir və region ölkənin sənaye məhsulunda 2,4%-ə bərabər bir paya malikdir. Təhlil olunan dövrdə sənaye istehsalında özəl bölmənin fəallaşması müşahidə olunur. Belə ki, Aran iqtisadi rayonunda sənaye məhsulunun həcmində qeyri-dövlət bölməsinin xüsusi çəkisi təhlil edilən dövrdə 31,1%-dən 62,5%-ə qədər yüksəlmişdir. Belə dəyişmə tempi sahibkarlıq fəaliyyətinə artan diqqət və əlverişli investisiya-kredit siyasəti ilə əlaqələndirilə bilər.

2003-2013-cü illərdə Aran iqtisadi rayonunda əsas kapitala investisiya qoyuluşlarında müsbət dinamika təmin edilmiş, təhlil edilən 10 il ərzində əsas kapitala investisiyaların həcmi 35,6 dəfə artmışdır (cədvəl 2). 2003-cü il üzrə əsas kapitala investisiya qoyuluşlarının 64,8%-i, 2013-cü ildə isə 92,1%-i tikinti quraşdırma işlərinə yönəldilmişdir. Təhlil dövründə Aran iqtisadi rayonunda istifadəyə

verilmiş əsas fondlarının həcmi 14,1 dəfə artmış, 2013-cü ildə 767,1 milyon manat təşkil etmişdir.

Cədvəl 2

Aran iqtisadi rayonunda əsas kapitala investisiyalar və istifadəyə verilmiş əsas fondlar ( mln. manat)

| | 2003 | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|
| İstifadəyə verilmiş əsas fondlar | 54,5 | 73,5 | 294,2 | 510,8 | 490,5 | 767,1 |
| Əsas kapitala investisyalar | 42,1 | 118,2 | 577,4 | 1089,9 | 1219,6 | 1498,2 |
| Tikinti-quraşdırma işlərinə investisiyalar | 35,3 | 71,8 | 515,9 | 886 | 1148 | 1380 |

Mənbə: http://www.stat.gov.az/source/regions/

İnvestisiya mühitinin formalaşmasında yerli büdcə xərclərinin rolu diqqətdən kənarda qalmamalıdır. Aran iqtisadi rayonunda yerli büdcə gəlir və xərclərinin tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitlər regionda iqtisadi fəallığın yüksəldilməsinin prioritet olduğunu söyləməyə əsas verir. Ümumiyyətlə, Aran iqtisadi rayonun da büdcə xərcləri (Şirvan şəhəri istisna olmaqla), digər rayonlar kimi dövlət büdcəsindən dotasiya hesabına maliyyələşir.

Sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması məqsədilə həyata keçirilən sahə və regional proqramların və investisiya layihələrini maliyyələşdirilməsində Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitləri mühüm əhəmiyyətə malikdir. 2003-2013-cü illər ərzində ölkə üzrə SKMF tərəfindən sahibkarlıq subyektlərinə verilən kreditlərin məbləği 25,5 dəfə artaraq 275 milyon manat, yaradılan yeni iş yerlərinin sayı isə 2,4 dəfə artaraq 12,1 minə bərabər olmuşdur. Cədvəl 3-dən göründüyü kimi 2013-cü ildə maliyyələşdirilən layihələrin 44,7%-i, ayrılan vəsaitin isə 24,9%-i Aran iqtisadi rayonunun payına düşmüşdür. Aparılan hesablamalar göstərir ki, baxılan ildə maliyyələşdirilən layihəyə orta hesabla ölkə üzrə 62 min, regionlar üzrə 44,4 min, Bakı şəhəri üzrə 253 min, Aran iqtisadi rayonu üzrə 34,3 min manat vəsait düşmüşdür.

Hər bir müəssisənin iqtisadi fəaliyyəti maliyyə imkanları ilə bağlıdır. Yaxşı maliyyə vəsaitlərinə malik sahibkar biznesi yaxşı təşkil edərək, daha çox mənfəət əldə etmək imkanına malik olur. Fikrimizcə, gələcəkdə Fondun vəsaiti hesabına verilmiş kreditlər üzrə böyük və iri həcmli kreditlərinin sayı üstünlük təşkil edərsə, sahibkarlıq fəaliy-

yətinin stimullaşdırmış, biznes mühitinin əlverişliliyini yüksəltmiş, sahibkarlığa dəstək mexanizmlərinin səmərəliliyini artırmış olar.

Cədvəl 3

SKMF-nun fəaliyyətini xarakterizə edən göstəricilər

| | 2003 | | 2005 | | 2010 | | 2012 | | 2013 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Maliyyələşdirilən layihələrin sayı** | | | | | | | | | |
| | ***sayı*** | ***xüsusi çəkisi*** | ***sayı*** | ***xüsusi çəkisi*** | ***sayı*** | ***xüsusi çəkisi*** | ***sayı*** | ***xüsusi çəkisi*** | ***sayı*** | ***xüsusi çəkisi*** |
| ***Ölkə üzrə*** | ***310*** | ***100*** | ***2203*** | ***100*** | ***1430*** | ***100*** | ***2419*** | ***100*** | ***4468*** | ***100*** |
| Bakı şəhəri | 88 | 28,4 | 206 | 9,4 | 5 | 0,3 | 199 | 8,2 | 303 | 6,8 |
| Regionlar | 222 | 71,6 | 1997 | 90,6 | 1425 | 99,7 | 2220 | 91,8 | 4165 | 93,2 |
| Aran | 91 | 29,4 | 842 | 38,2 | 553 | 38,7 | 1034 | 42,7 | 1998 | 44,7 |
| **Verilmiş güzəştli kreditlər (mln. manat)** | | | | | | | | | | |
| ***Ölkə üzrə*** | ***10,8*** | ***100*** | ***36,3*** | ***100*** | ***104*** | ***100*** | ***218*** | ***100*** | ***275,1*** | ***100*** |
| Bakı şəhəri | 4,4 | 40,7 | 6,1 | 16,8 | 0,2 | 0,2 | 37,1 | 17 | 76,7 | 27,9 |
| Regionlar | 6,4 | 59,3 | 30,2 | 83,2 | 103.8 | 99,8 | 180.9 | 83 | 198.4 | 72,1 |
| Aran | 2 | 18,5 | 7,4 | 20,4 | 34,6 | 33,3 | 66,7 | 30,6 | 68,5 | 24,9 |
| **Yaradılmış yeni iş yerləri** | | | | | | | | | | |
| ***Ölkə üzrə*** | ***4994*** | ***100*** | ***16334*** | ***100*** | ***5626*** | ***100*** | ***9083*** | ***100*** | ***12045*** | ***100*** |
| Bakı şəhəri | 1641 | 32,9 | 2424 | 14,8 | 24 | 0,4 | 1467 | 16,2 | 2289 | 19 |
| Regionlar | 3353 | 67,1 | 13910 | 85,2 | 5602 | 99,6 | 7616 | 83,8 | 9756 | 81 |
| Aran | 1184 | 23,7 | 4224 | 25,9 | 1847 | 32,8 | 2756 | 30,3 | 4028 | 33,4 |

Mənbə: http://anfes.gov.az əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Səmərəli investisiya qoyuluşları rəqabət qabiliyyətli milli məhsulların istehsalının genişlənməsinə, ÜDM-in və milli gəlirin fiziki həcminin artımına imkan verir. Cədvəl 4 məlumatından göründüyü kimi 2005-2013-cü illərdə Aran iqtisadi rayonunda adambaşına düşən məcmu məhsul 3,6 dəfə artmış, 2013-cü ildə 2568 manat olmuşdur. Bu göstərici ümumi ölkə səviyyəsindən 2,5 dəfə, Bakı şəhəri üzrə orta göstəricidən 7,9 dəfə az olsa da, onun müsbət dinamikası nikbinliyə əsas verir. Adambaşına məcmu məhsulun və əsas fondların aşağı payı investisiya qoyuluşlarının aşağı səviyyəsi ilə izah edilir.

Aparılan hesablamalar göstərir ki, Aran iqtisadi rayonu üzrə adambaşına düşən investisiyaların aşağı səviyyədədir. Təkcə, 2013-cü ildə adambaşına 784 manat həcmində investisiya düşmüşdür ki, bu göstərici ölkə üzrə ümumi göstəricidən 2,4 dəfə, Bakı şəhəri üzrə ümumi göstəricidən 6,4 dəfə aşağıdır.

Regionda adambaşına istifadəyə verilmiş əsas fondların həcmi

təhlil dövründə 9,5 dəfə artmaqla, 2013-cü ildə 401,5 manat təşkil etmişdir. Bununla belə, iqtisadi rayonda təhlil dövründə istifadəyə verilmiş əsas kapitala investisiyaların bir manatına düşən məcmu məhsulun həcmi 31% azalaraq 10,5 manatdan 3,3 manata enmişdir (cədvəl 4). Əsas kapitalın bir manatına düşən istifadəyə verilmiş əsas fondların həcmi təhlil dövründə 62 qəpikdən 51 qəpiyə qədər, başqa sözlə 82% azalmışdır.

Cədvəl 4

İnvestisiya potensialından istifadə vəziyyətini xarakterizə edən göstəricilərin dinamikası

| | | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|
| Adambaşına məcmu məhsul, manat | Ölkə üzrə | - | 5081 | 6231 | 6298 | 6461 |
| | Bakı şəhəri | - | 16982 | 20139 | 19888 | 20163 |
| | Aran | 709 | 1632 | 2078 | 2310 | 2568 |
| Adambaşına düşən istifadəyə verilmiş əsas fondlar, manat | Ölkə üzrə | 566 | 663 | 1166 | 1104 | 1191 |
| | Bakı şəhəri | 2301 | 2144 | 4149 | 3131 | 3128 |
| | Aran | 42 | 160,4 | 274.1 | 260 | 401,5 |
| Adambaşına düşən investisiyaların həcmi, manat | Ölkə üzrə | 683 | 1101 | 1405 | 1668 | 1907 |
| | Bakı şəhəri | 2663 | 3285 | 4007 | 4477 | 4995 |
| | Aran | 68 | 315 | 585 | 646 | 784 |
| Əsas kapitala investisiyaların bir manatına düşən istifadəyə veilmiş əsas fondlar, manat | Ölkə üzrə | 0,8 | 0,6 | 0,8 | 0,7 | 0,6 |
| | Bakı şəhəri | 0,9 | 0,7 | 1 | 0,7 | 0,6 |
| | Aran | 0,62 | 0,51 | 0,47 | 0,4 | 0,51 |
| Əsas kapitala investisiyaların bir manatına düşən MM (manat) | Ölkə üzrə | - | 5 | 4 | 4 | 3 |
| | Bakı şəhəri | - | 5,2 | 5,1 | 4,5 | 4,1 |
| | Aran | 10,5 | 5,1 | 3,6 | 3,5 | 3,3 |

Mənbə: http://stat.gov.az/ istifadə etməklə müəllif tərəfindən tərtib olunmuşdur.

Regional siyasətdə-investisiya potensialından istifadə prioritetlərinin reallaşdırılmasında mühüm rol oynaya biləcək aşağıdakı problemlərin gündəlikdə saxlanmasını məqsədəuyğun hesab edirik:

- investisiya proseslərinin daha da şəffaflaşdırılması;
- urbanizasiya prosesinin və regionlararası kapital axının tənzimlənməsi;
- istehsala dövlət sifarişləri sisteminin tarazlı regional inkişaf meyarlarına uyğun təkmilləşdirilməsi;
- iqtisadi və inzibati rayon və şəhərlərin sosial-iqtisadi inkişaf planların sıx əlaqələndirilməsi;
- bələdiyyələrin rolunu artırılması.

**2. Regionlarda aqrar-sənaye klasterləri yaradılmalı və klasterial investisiya qoyuluşları artırılmalıdır.**

Aqrar-sənaye klasterlərinin formalaşdırılması regionun investisiya potensialından səmərəli istifadənin perspektivli istiqaməti kimi aparıcı məhsulun istehsaldan istehlaka qədərki bütün mərhələlərinin investisiyalaşması, məqsədyönlü fəaliyyətlərin vəhdətini nəzərdə tutur.

Əsasını biznes təşəbbüsləri təşkil edən, şaquli və üfüqi inteqrasiya əlaqələrinin iqtisadi məqsədəuyğunluğu, eləcə də aqrar-sənaye klasterlərinin dövlət strukturlarının iştirakı ilə təşkili, dövlət tərəfindən təşviq edilən və yaradılan klasterlər, iqtisadi mərkəzəqaçma meyllərini neytrallaşdıran investisiya siyasəti həyata keçirilmədir. Bununla belə, tarazlı regional investisiya fəaliyyətinin perspektivləri klasterin təbii-iqtisadi üstünlüklərdən irəli gələn rəqabət qabiliyyəti ilə şərtlənir.

Aran iqtisadi rayonunun inzibati ərazi vahidlərində prioritet hesab edilən kənd təsərrüfatı sahələrinin inkişafının reallaşdırılması üçün ilk növbədə institusional struktur investisiyalaşdırılmalıdır. Təbii ki, bu halda yüksək potensiallı istehsal sahələrinin prioritetliyi, onun emal və kommersiya infrastrukturunun modernləşdirilməsi gerçəkləşdirilməlidir.

**3. Kooperativ birliklərin maliyyə təminatının yaxşılaşdırılmasında dövlət və özəl bölmənin birgə layihələrinin rolu artırılmalıdır.**

Kooperativ birliklərin maliyyə təminatının yaxşılaşdırılmasında dövlət və özəl bölmənin birgə investisiyaların rolunun artırılması zamanı iqtisadi mərkəzəqaçma amili nəzərə alınması, tarazlı regional investisiya fəaliyyətinin perspektivlərini genişləndirir. Məsələ ondadır ki, regional investisiya siyasəti kənd təsərrüfatı kooperativlərinin fəaliyyətinin stimullaşdırmaqla, investisiya potensialının gerçəkləşdirilməsi imkanlarını genişləndirir. Hazırda, aqrar-ərzaq kompleksində fəaliyyət göstərən təsərrüfat subyektləri arasında kooperasiya münasibətlərinin inkişafı, istehsalın stimullaşdırılmasına istiqamətləndirilmiş tədbirlərin səmərəli həyata keçirilməsinə və onun müsbət cəhətlərinin meydana çıxarılmasına imkan verir. Aqrar sahədə istehsal, emal, satış, kreditləşmə, təchizat və digər sahələr üzrə infrastrukturların formalaşması aqrar potensialı möhkəmləndirməklə regionların tarazlı sosial-iqtisadi inkişaf tempini yüksəldə bilər.

Birgə investisiya layihələrinin icrası üzrə qabaqcıl ölkələrin təcrübəsi göstərir ki:

- emal müəssisələrinin ahəngdar fəaliyyətinin dəstəklənməsi regionun iqtisadi və investisiya fəallığına, həmçinin yüksək texnolo-

giyaların tətbiq dairəsinin genişlənməsinə müsbət təsir edir. Odur ki, qeyd olunan məsələlər kompleks şəkildə nəzərdən keçirilməlidir;

- investisiya prosesləri iştirakçıları arasında bərabərhüquqlu tərəfdaşlığın bütün aspektlərinin əhatə olunması üçün qiymət dispariteti yumşaldılmalıdır;
- məhsulun istehsaldan son istehlakçıya doğru hərəkətində transaksion xərclər minimumlaşdırılmalıdır;
- istehsal infrastrukturunun modernləşdirilməsində istehsal-emal-satış tərəfdaşlığı potensialından daha səmərəli istifadə edilməlidir;
- klasterlərin təşkilində regionun xüsusiyyətləri və klasterdaxili müəssisələrin ölçülərindən asılı olmayaraq onların bərabərhüquqlu tərəfdaşlığını nəzərdə tutan yanaşmaya üstünlük verilməlidir
- investorlar üçün regionda fəaliyyət göstərən çoxsaylı kənd təsərrüfatı istehsalçıları ilə əlaqələrin optimallaşdırılması mexanizmi formalaşdırılmalıdır;
- regionda antiböhran siyasətinin müasir texnologiyalarından istifadə olunmalı, müxtəlif fəaliyyət sahələrində intensivləşmənin antiböhran xarakterli maliyyə-kredit mexanizmi formalaşdırılmalıdır;
- sığorta və investisiya fəaliyyətinin qarşılıqlı tənzimlənməsi mexanizmi, region iqtisadiyyatının xüsusiyyətləri nəzərə alınmaqla təkmilləşdirilməli, risk dərəcəsinin aşağı salınması məqsədi ilə ehtiyatlar yaradılmalı və limitlər müəyyənləşdirilməlidir.

**4. İnvestisiya-innovasiya fəaliyyətinin stimullaşdırılması üzrə regional strategiya müəyyənləşdirilməlidir.**

İqtisadi mərkəzəqaçma amili nəzərə alınmaqla regionlarda innovasiyaların investisiyalaşdırılması strategiyasının reallaşdırılması tarazlı investisiya fəaliyyətinin perspektivlərinin əsas şərti və nəticəsi kimi qəbul edilməlidir. Belə ki, regionlarda iqtisadi mərkəz rolunu oynayan şəhərlər və sənaye qovşaqları innovasiyaların tətbiqi mərkəzləri olmalıdır. İnvestisiya proseslərinin səmərəliliyi intensiv və tarazlı inkişafın təmin edilməsinin zəruri edir. Bu cəhət tarazlı regional inkişaf və iqtisadi mərkəzəqaçma proseslərinə vahid müstəvidə yanaşmaları stimullaşdıran amil rolunda çıxış etməlidir.

İnnovasiya fəaliyyəti çoxsaylı amillərin təsiri altında formalaşır və əksər hallarda böyük sayda subyektlərin fəaliyyət inteqrasiyasının intensivləşdiyi ərazilərdə həyata keçirilir. Həmin fəaliyyətin səmərəliliyi iqtisadi mərkəzlərin investisiya imkanlarının gerçəkləşdirilməsi dərəcəsi ilə bilavasitə bağlıdır. Bu baxımdan regionun tarazlı sosial-

iqtisadi inkişafı adekvat investisiya fəaliyyətinin nəticəsi kimi qəbul olunmalıdır.

Regionlarda iqtisadi mərkəzəqaçma amili nəzərə alınmaqla tarazlı innovasiya-investisiya siyasətinin həyata keçirilməsi risklərin idarə edilməsi məsələlərini xüsusilə aktuallaşdırır. Məlumdur ki, innovasiya fəaliyyətində risk ehtimalı yüksəkdir. Artıq qeyd olunduğu kimi, investisiya layihələrinin həyata keçirilməsi prosesində, icraçılar çox sayda risklərlə üzbəüz qalır və adekvat reaksiya imkanları hələ ki, məhduddur. Başqa sözlə investisiya və innovasiya fəaliyyətinin belə qovuşması qeyri-müəyyənlik və risk mühitinin unikallığını şərtləndirməklə qeyri-ənənəvi yanaşmalardan istifadəni zəruri edir. Həmin yanaşmalarda alternativlərin olması, tarazlı regional inkişaf siyasətində iqtisadi mərkəzəqaçma prosesinin idarə edilməsinə və onların tətbiqinin nəzəri imkanlarına diqqəti artırır.

**5. Regionun investisiya potensialından istifadənin ekoloji problemlərinin həlli investisiya fəaliyyətinin prioritetlərindən biri olmalıdır.**

Regionların tarazlı inkişaf perspektivləri, ətraf mühitin mühafizəsi və regionlarda ekoloji problemlərə yönəldilən investisiyaların səmərəliliyi ilə əlaqədardır. İnkişafın intensivləşdirilməsi ətraf mühitə antropogen təzyiqi artırır. Bu mənada hesab edirik ki, çayların məcrasının təmizlənməsi və mövcud mühafizə bəndlərinin bərpası tədbirlərinin investisiyalaşdırılması Aran iqtisadi rayonu üçün mühüm əhəmiyyətli məsələdir. Bu baxımdan Kürün məcrasının təmizlənməsi və dərinləşdirmə işlərinin davam etdirilməsi, Göyçay çayında, Tərtər çayında sahilbərkitmə işlərinin davam etdirilməsi, İmişli rayonu ərazisində Araz çayının məcrasının düzləndirilməsi işləri davam etdirilməlidir. Təbii-iqlim şəraitinə görə Aran iqtisadi rayonunda su təsərrüfatının inkişafı, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və suvarma-drenaj şəbəkəsinin bərpası daim diqqət mərkəzində olmalıdır. Onu da qeyd edək ki, ekoloji layihələrin investisiyalaşması sosial, iqtisadi, elmi-texniki, institusional siyasətin prioritetlərinə əsaslanmalı, regionun investisiyaya tələbatının ödənilməsi vəziyyətini nəzərə almalıdır. Belə vəziyyət, ətraf mühitin mühafizəsi tədbirlərinin, o cümlədən, regionlarda ekoloji təsərrüfatçılığın investisiyalaşdırılmasına yaxın keçmişdə olduğu kimi "qalıq" prinsipi ilə yanaşmanı nəzərdə tutmur. Sadalanan tədbirlərin maliyyələşdirilməsi regionlarda aqrar-sənaye istehsalının intensivləşməsini və bu

istiqamətdə yaranan məsrəflərin (əlbəttə bu və ya digər məhsulun keyfiyyətinə xələl gətirmədən) minimumlaşdırılmasını tələb edir.

**6. Regiona investisiya qoyuluşlarının prioritetlərini müəyyənləşdirmək üçün müqayisəli üstünlüklər nəzərə alınmalı və çox meyarlı yanaşma əsasında qiymətləndirmə aparılmalıdır.**

İnvestisiyaların maliyyələşdirilməsinin əsas istiqamətləri müəyyənləşdirilərkən region üçün multiplikativ effekt yaradan və regionda lokomotiv rolunu oynayan sahələr müəyyənləşdirilməlidir. Aran iqtisadi rayonu kənd təsərrüfatı, sənaye (emal və elektrik enerjisi istehsalı), nəqliyyat (dəniz və çay), tikinti və digər sahələrin birgə inkişafı üçün böyük potensiala malikdir. Regionun perspektivli investisiya istiqamətlərinin müəyyən edilməsində Aran iqtisadi rayonunun investisiya potensialından faktiki istifadə səviyyəsi nəzərə alınmalıdır. Mingəçevir şəhərində enerji istehsalı və aqroemal, Şirvan şəhərində yüngül və yeyinti, Yevlax şəhərində yüngül sənaye sahələrinə investisiya qoyuluşları perspektivli hesab edilməlidir.

Son illər görülmüş tədbirlər həmin sahələrin iqtisadi səmərəliliyinin yüksəldilməsi və sosial əhəmiyyətinin artırılması üçün baza formalaşdırmışdır.

Regionun investisiya potensialından istifadə, infrastrukturun inkişaf səviyyəsi ilə bilavasitə əlaqədardır. Müasir istehsal infrastrukturunun mövcudluğu regionda iqtisadi fəallığın təmin olunmasının ilkin şərtlərindən biridir. Fikrimizcə, infrastrukturun qabaqcıl ölkələrin səviyyəsinə çatdırılması üçün dövlət büdcəsindən maliyyələşdirilən proqramların hazırlanması və həyata keçirilməsi perspektivli hesab olunur.

Təkcə onu demək lazımdır ki, iqtisadi rayona daxil olan şəhərlərin üçündə də su təchizatı və kanalizasiya sistemi, elektrik enerjisi və təbii qazla təchizat şəbəkəsi yenidən qurulmalıdır. Adı çəkilən sahələrdə görülmüş işlərin qısa müddət ərzində başa çatdırılması, Aran iqtisadi rayonunda şəhər əhalisinin həyat səviyyəsinə və şəhər iqtisadiyyatının inkişaf tempinə ciddi təsir edəcəkdir.

Hazırda Mingəçevir, Şirvan və Yevlax şəhərlərində istilik təchizatı sisteminin fəaliyyəti yox dərəcəsindədir. Odur ki, bu sahəyə, ilk növbədə səhiyyə və təhsil müəssisələrində müvafiq şəbəkənin inkişafına investisiya qoyuluşları davam etdirilməlidir.

Nəqliyyat və rabitə sahəsinə investisiya qoyuluşlarının səmərəliliyi görülən işlərin qısa müddətdə başa çatdırılmasını zərurətə çevirmişdir. Neftçala, Kürdəmir, İmişli, Saatlı və bir sıra digər rayonlarda mərkəzi

və kənd ATS-lərinin müasir texnologiya əsasında rekonstruksiyası perspektivli investisiya istiqamətidir.

Yevlax rayonunda kəndlərin su təchizatının, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması kənd təsərrüfatının, o cümlədən heyvandarlıq, taxıl, pambıq və bostan məhsulları istehsalı və emalının inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Rayonda yerli xammala əsaslanan tikinti materialları sənayesi sahələrinin inkişafı üçün gil, sement xammalı, tikinti qumu yataqlarının kəşfiyyatı işlərinə investisiyalar perspektivli hesab olunur. Onu da qeyd edək ki, Aran iqtisadi rayonunun əksər ərazilərində tikinti materialları istehsalı müəssisələrinin yaradılması, perspektivli istiqamətdir. İnzibati rayonların demək olar ki, hamısında müvafiq xammal bazasının formalaşdırılması işləri aparılmalıdır.

Aran iqtisadi rayonuna daxil olan kənd inzibati rayonlarının demək olar ki, hamısının asfaltlaşdırılması, rayon mərkəzlərinin abadlaşdırılması, kəndlərin su təchizatının yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyu ilə təminatının yüksəldilməsi və suvarma-drenaj şəbəkəsinin təmin-bərpası, elektrik şəbəkəsinin yenidən qurulması, yaşayış məntəqələrinin təbii qazla təminatı investisiyalaşmanın prioriteti olmalıdır.

Ağcabədi, Sabirabad və Salyan rayonlarında qış otlaqlarının meliorativ vəziyyətinin yaxşılaşdırılması vacibdir. Ağcabədi rayonunda həmçinin hərbi əməliyyatlar aparılmış və işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işlərinə vəsait ayrılması da davam etdirilməlidir.

Təbii-iqlim şəraitinə görə Aran iqtisadi rayonunda su təsərrüfatının inkişafı daim diqqət mərkəzində olmalıdır. Odur ki, iqtisadi rayonda perspektivli investisiya istiqamətləri qismində Mil-Qarabağ kollektorunun yenidən qurulması və Yuxarı Mil Kanalının tikintisinin davam etdirilməsi qeyd edilməlidir.

Həmçinin Ağdaş, Göyçay, Neftçala, Saatlı, Sabirabad, Ucar, Zərdab və bir sıra digər rayonlarda torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və suvarma-drenaj şəbəkəsinin bərpası aktual olmaqla, onun həll edilməsi üçün lazımi investisiya ayrılmalıdır.

Bərdə və Zərdab rayonlarında ipəkçiliyin inkişaf etdirilməsi üçün tikintisi yarımçıq qalmış, barama qurutmaq məntəqələrinin inşası başa çatdırılmalıdır. Həmin tikintilərə investisiyaların güzəştli kreditləşdirilməsi nəzərdə tutulur. Rayonda südlük maldarlığın, xüsusilə

camışçılığın inkişafı istiqamətində kifayət qədər təcrübə vardır. Zərdabda süd zavodunun fəaliyyətinin bərpası məqsədəuyğundur.

Aran iqtisadi rayonunun inzibati ərazi vahidlərində prioritet hesab edilən kənd təsərrüfatı sahələrinin klaster əmələgətirmə potensialının reallaşdırılması üçün institusional strukturun formalaşdırılması investisiyalaşdırılmalıdır. Təbii ki, bu halda yüksək potensiallı istehsal sahələrinin prioritetliyi, onun emal və kommersiya infrastrukturunun modernləşdirilməsi layihələrinin investisiyalaşması ilə gerçəkləşdirilə bilər.

İlk növbədə, iqtisadi rayonun ərazisində yerli xammal və tərəvəz şirələri, tərəvəz və ət konservləri, dondurulmuş meyvə və tərəvəzin istehsalı və satışı üçün ilkin şəraitin olduğunu qeyd etməliyik. Mövcud istehsal potensialının konkret ərazidə reallaşdırılması üçün faraş tərəvəz, ət və süd istehsalının təşkili layihələrinin investisiyalaşdırılması perspektivlidir. İntensiv heyvandarlıq və quşçuluğun inkişafı yeni müəssisələrin yaradılmasını tələb edir. Məsələ ondadır ki, iqtisadi rayonun ərazisində heyvandarlıq komplekslərinin kənardan gətirilən qarışıq yemlə təminat vəziyyətinin həm keyfiyyət, həm də qiymət baxımından yaxşılaşdırılmasına ehtiyac vardır.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə maliyyələşdirilməsi prioritet sayılan investisiya layihələri sırasında kənd təsərrüfatı texnikası üçün ehtiyat hissələri və elektrik avadanlıqları istehsalı (Mingəçevir şəhəri), baramaçılıq, texniki bitkiçilik (Ağdaş rayonu ), istixana şəraitində faraş tərəvəz istehsalı (Şirvan şəhəri, Ağdaş, Ucar və bir sıra digər rayonlar), soyuducu anbar komplekslərinin yaradılması (Ağdaş və Ucar rayonları, Mingəçevir və Şirvan şəhərləri) xüsusi qeyd olunmalıdır.

Son araşdırmalara görə Ucar və Zərdab rayonlarında quşçuluğun inkişaf etdirilməsi perspektivli investisiya layihələri hesab edilir.

SWOT təhlilin nəticələrinə əsasən istixanaların investisiyalaşdırılmasının zəif cəhətlərinə infrastrukturun texnoloji səviyyəsinin aşağı olması, o cümlədən logistik imkanların məhdudluğu, bazara uyğunlaşmanın transaksiya xərclərinin yüksəkliyi və s. aid edilə bilər. Nəticə etibarı ilə zəif cəhətlərin layihənin gəlir-xərc nisbətinin pisləşdirməməsi və investor maraqlarının azalmasına gətirib çıxarmaması üçün, davamlı və nəticələri monitorinq olunan fəal tənzimləyici siyasət həyata keçirilməlidir.

Hesablamalar göstərir ki, iqtisadi rayonun artıq qeyd olunmuş

inzibati rayonlarında min kvadrat metr sahəyə malik istixana tikilməsi üçün 77 - 81 min ABŞ dolları məbləğində investisiya qoyuluşu tələb olunur. İstixanalarda pomidor, badımcan və bibər yetişdirilməsi nəzərdə tutulduqda dövriyyə vəsaitlərinə investisiya qoyuluşu hər bir istehsal istiqaməti üçün bir illik istismar xərclərinə (pomidor və bibər istehsalında 10 min ABŞ dolları, xiyar istehsalında 11 min ABŞ dolları, badımcan istehsalında 7 min ABŞ dolları) bərabər götürülə bilər. Əsas vəsaitlərə investisiya qoyuluşunun 70 min dollar olacağı, istixananın inşasının 12 ayda başa çatacağı planlaşdırılır. İstixanada 3 nəfər muzdlu işçinin çalışması kifayət edir. Odur ki, yeni yaradılacaq bir iş yeri üçün 25,7-27 min ABŞ dolları investisiya tələb olunur.

Respublikada quşçuluğun inkişafında əldə edilən uğurlar əhalinin yumurta və quş ətinə olan tələbatının daxili istehsal hesabına ödənilməsi səviyyəsinin yüksəldilməsinə gətirib çıxarmışdır. Bununla belə, damazlıq yumurtanın xeyli hissəsi (təqribən 60%-ə qədəri) idxal olunur. Həmin məhsulun bir ədədinin idxal qiyməti isə 35 qəpik ətrafında tərəddüd edir. Hesablamalar göstərir ki, Aran iqtisadi rayonunda ( Mingəçevir, Şirvan və Yevlax şəhərinə yaxın ərazilərdə, Ucar və Zərdab rayonlarında ) bir ədəd 20-25 qəpiyə satıla biləcək damazlıq yumurta istehsal etmək mümkündür.

Quşçuluğun inkişaf etdirilməsi, müvafiq broyler təsərrüfatında damazlıq yumurta istehsalı üçün, yemləmə, havalandırma, soyutma, hazır məhsulların qablaşdırılması və saxlanması məqsədilə quraşdırılacaq avadanlıqların, dünya bazar qiymətləri ilə əldə edildikdə belə məqbul iqtisadi səmərə verəcəyi gözlənilir. Layihənin reallaşdırılması üçün lazım olan vəsait 3 milyon manatdan bir qədər artıqdır.

Aran iqtisadi rayonunun ərazisində, o cümlədən Neftçala, Salyan rayonlarında süni və təbii göllərin olduğu nəzərə alınaraq göl balıqçılığının inkişafının investisiyalaşdırılması perspektivlidir.

Aqrar regionlarda kənd təsərrüfatı təyinatlı maşınqayırma sənayesinin formalaşdırılması investisiyaların maliyyələşdirilməsinin prioritetlərinə daxil edilməlidir. Bu investisiyalar kapital qoyuluşlarının texnoloji strukturunun yaxşılaşmasına və kapital dövriyyəsinin tezləşməsinə imkan verəcəkdir.

Aran iqtisadi rayonu üzrə yuxarıda göstərilən perspektivli investisiya istiqamətlərinin müxtəlif mənbələrdən maliyyələşdirilməsinin optimal variantları əsaslandırılmalıdır.

Regional iqtisadiyyatın inkişafının mütərəqqi meyllərini, əldə

edilmiş təcrübəni və aparılmış tədqiqatların nəticələrini ümumiləşdirərək, demək olar ki, investisiyaların müştərək maliyyələşdirilməsi və güzəştli kreditləşdirilməsinin optimal nisbətlərinin müəyyənləşdirilməsi əlverişlidir. Məhz bu halda regionlarda, o cümlədən Aran iqtisadi rayonunda perspektivli investisiya layihələrinin reallaşdırılmasında daha yüksək səmərəlilik əldə edilə bilər.

Nəhayət qeyd edək ki, Aran iqtisadi rayonunun kənd təsərrüfatı, sənaye (emal və elektrik enerjisi istehsalı), nəqliyyat (dəniz və çay), tikinti və digər sahələrin birgə inkişafında fəallaşan potensial investisiya prioritetləri diqqət tələb edir. Burada respublika tabeli Mingəçevir, Şirvan və Yevlax şəhərlərinin potensial investisiya istiqamətləri şəhər təsərrüfatının inkişafının modernləşdirilməsinə xidmət etməlidir. Artıq qeyd olunduğu kimi, Mingəçevir, Şirvan və Yevlax şəhərlərində enerji istehsalı və aqroemal, Şirvan şəhərində yüngül və yeyinti, Yevlax şəhərində yüngül sənaye sahələrinə investisiya qoyuluşlarının perspektivliyi diqqət mərkəzində olmalıdır.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri dərc edilmişdir:**

**1.** Tarazlı regional inkişaf və iqtisadi mərkəzəqaçma meyilləri // Az.ETKTİ və Tİ-nun Eimi Əsərləri, 2011, № 4, Bakı, s. 229-233

**2.** Aqrar sahənin dayanıqlı inkişafında bələdiyyə resurslarından istifadə məsələləri / "Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, 2011, Bakı, Az.ETKTİ və Tİ, s.462-465.

**3.** Regional inkişaf və onun tənzimlənməsinin nəzəri-metodoloji aspektləri // Kooperasiya elmi-praktik jumal, 2012, №2 (25), s.153-159

**4.** Regionun potensial investisiya istiqamətlərinin qiymətləndirilməsi məsələləri / "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. 2012, Bakı, AKU, s.279-281

**5.** Regional inkişafin konseptual məsələləri / Az.ETKTİ və Tİ-nun 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyyatın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, 2012, Bakı, Az.ETKTİ və Tİ, s.524-527

**6.** Aran iqtisadi rayonunda investisiya potensialından istifadə səviyyəsinin qiymətləndirilməsi // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2013, Bakı, s.242-247

**7.** İntensivləşdirmə mühitində regionun investisiya potensialının istifadə səmərəliliyinin yüksəldilməsi məsələləri // Az.ETKTİ və Tİ-nun Eimi Əsərləri, 2013, № 1, Bakı, s.100-107

**Рагимов Микаил Рахман оглы**

**Направления роста эффективности использования инвестиционного потенциала региона**

## РЕЗЮМЕ

Работа состоит из ведения, трех глав, выводов и списка использованной литературы.

Во ведении обосновывается актуальность этой проблемы, уровень изученности проблемы, цель и задачи исследования, его теоретические и методологические основы, практическая значимость и научная новизна.

**В первой главе** рассматриваются теоретико-методологические вопросы регулирования регионального развития, инвестиционный потенциал региона и особенности формирования, место в региональной политике использования инвестиционного потенциала и приори-

теты финансирования инвестиций.

Кроме того выявляется взаимосвязь и степень реализации инвестиционного потенциала, инвестиционной и экономической политики сточки зрения теоретико-методологического аспекта.

**Во второй главе** анализируется и оценивается уровень социально-экономического развития Аранского экономического района и ситуация в использования инвестиционного потенциала региона, а также определяется роль инвестиционной обеспеченности при улучшении жизненного уровня населения, также пути и возможности улучшения уровень и структуры занятости и возможности оказания наиболее качественных социальных услуг населению региона.

**В третей главе** определяется эффективные направления в использовании инвестиционного потенциала региона, факторы воздействующие на сбалансированность инвестиционных действий, в условиях интенсификации выявляются пути и перспективы интенсивного использования инвестиционного потенциала, в целом определяется перспективные направления в инвестиционных вложениях. В конце автор обобщая полученные результаты, выдвигает научно обоснованные предложения.

**Ragimov Mikail Rahman Oglu**

## Directions of growth of efficiency of use of investment potential of the region

## SUMMARY

Work consists of maintaining, three heads, conclusions and the list of the used literature.

Relevance of this problem, level of study of a problem, the purpose and research problems, its theoretical and methodological bases, the practical importance and scientific novelty locates in maintaining.

In chapter 1 teoretiko-meto-prelogical questions of regulation of regional development, investment potential of the region and feature of formation, a place in regional policy of use of investment potential and priorities of financing of investments are considered.

Besides the interrelation and extent of realization of investment

potential, investment and economic policy of grinding of sight of teoretiko-methodological aspect comes to light.

In chapter 2 the level of social and economic development of the Aransky economic region and a situation is analyzed and estimated at uses of investment potential of the region, and also the role of investment security at improvement of a standard of living of the population is defined, also ways and possibilities of improvement the level and structures of employment and possibility of rendering the most high-quality social services to the population of the region.

In chapter 3 to the head is defined the effective directions in use of investment potential of the region, the factors influencing balance of investment actions in the conditions of an intensification come to light ways and prospects of an intensive use of investitsionkny potential, in general is defined the perspective directions in investment investments. At the end the author generalizing the received results, makes evidence-based proposals.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100